# Bakı Avrasiya Universiteti

## STRATEJİ İNKİŞAF PROQRAMI

## (2018-2022-ci illər üçün)




Bakı Avrasiya Universitetinin Elmi Şurasının "29" dekabr 2017-ci il tarixli qərarı ilə (protokol No: EŞ04-11/17) təsdiq edilmişdir.

**NORMATİV BAZA**

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının 2009-cu il 19 iyun tarixli 833-IIIQ nömrəli Qanunu
2. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"
3. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"
4. Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar (ESG)
5. "Elm haqqında" Azərbaycan Respublikasının 14 iyun 2016-cı il tarixli 271-VQ nömrəli Qanunu

**MÜNDƏRİCAT**

**1 Mövcud vəziyyətin təhlili və risklərin idarə edilməsi**
1.1 Əsas inkişaf istiqamətləri üzrə qazanılmış nailiyyətlər və mövcud vəziyyət
1.2 Güclü, Zəif, İmkanlar və Təhdidlərin (GZİT / SWOT) təhlili
1.3 Risklərin idarə edilməsi
**2 Missiya, vizyon və dəyərlər**
**3 Strateji istiqamətlər, məqsədlər və hədəf göstəriciləri**
**3.1 Rəqabətqabiliyyətli kadr hazırlığının təmin edilməsi**
3.1.1 Təhsilin məzmununun yeni çağırışlar və tendensiyalar kontekstində müasirləşdirilməsi, daxili və xarici əmək bazarının tələbatına cavab verən kadrların hazırlanması
3.1.2 Təhsilverənlərin peşəkarlıq səviyyəsinin artırılması
3.1.3 Təhsilalanların vətəndaşlıq və vətənpərvərlik ruhunda tərbiyəsi, sosial dəstək tədbirlərinin həyata keçirilməsi
**3.2 Elmi-tədqiqat fəaliyyətinin təkmilləşdirilməsi**
3.2.1 Universitetin elmi-tədqiqat fəaliyyətinin səmərəliliyinin artırılması
3.2.2 Tədqiqat infrastrukturunun gücləndirilməsi
3.2.3 Əməkdaşlıq və şəbəkələşmə
3.2.4 Elmin inkişafına yönəlik maliyyə və resursların idarə edilməsi
3.2.5 Elmi kadr potensialının inkişafı
**3.3 Universitetin beynəlmiləlləşdirilməsi**
3.3.1 Beynəlxalq səviyyəli strateji əməkdaşlıqların artırılması
3.3.2 Mübadilə proqramlarının əhatə dairəsinin genişləndirilməsi
3.3.3 Əcnəbi tələbələrin cəlb olunması
3.3.4 Tədqiqat sahəsində beynəlxalq əməkdaşlığın inkişafı
3.3.5 Universitetin beynəlxalq reytinqinin yüksəldilməsi
**3.4 İdarəetmə mexanizmlərinin müasirləşdirilməsi və idarəetmənin təkmilləşdirilməsi**
3.4.1 İdarəetmənin təkmilləşdirilməsi
3.4.2 İnsan resurslarının idarə edilməsinin müasirləşdirilməsi
3.4.3 İdarəetmənin rəqəmsallaşdırılması
**3.5 Maddi-texniki baza infrastrukturunun təkmilləşdirilməsi və müasirləşdirilməsi**
3.5.1 Universitet infrastrukturunun inkişafı
**3.6 Universitetin müsbət imicinin qorunması, mövqelərinin möhkəmləndirilməsi**
**4 İcra, monitorinq və qiymətləndirmə**

# 1. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ VƏ RİSKLƏRİN İDARƏ EDİLMƏSİ

## 1.1. Əsas inkişaf istiqamətləri üzrə qazanılmış nailiyyətlər və mövcud vəziyyət

Bakı Avrasiya Universiteti (BAAU) coxpilləli tədris prosesində xarici siyasət və beynəlxalq hüququn əsaslarına yiyələnməklə respublikanın xarici ölkələrdəki səfirlik, konsulluq və digər təmsiledici strukturlarında, beynəlxalq təşkilatlarda fəaliyyət göstərən, regionlar üzrə diplomat, iqtisadçı, hüquqşünas, jurnalist, tərcüməçilər hazırlayan ilk ixtisaslaşmış özəl ali təhsil müəssisəsi kimi Ali Diplomatiya Kolleci adı ilə 30.04.1992-ci il tarixdə yaranmışdır.

Ali Diplomatiya Kolleci Azərbaycan Respublikası Təhsil Nazirliyi nəzdindəki Dövlət Ali Ekspert Komissiyasının (DAEK) 13.03.1993-cü il tarixli 7/1 saylı qərarı ilə qeydiyyatdan keçirilmişdir. Həmin qərarla təhsil müəssisəsinə "Beynəlxalq münasibətlər", "Diplomatiya", "İqtisadiyyat və idarəetmə", "Beynəlxalq hüquq", "Jurnalistika", "Beynəlxalq jurnalistika", "Dilşünaslıq", "Sinxron tərcümə", "İngilis dili tərcüməçiliyi", "Sosiologiya", "Politologiya" ixtisasları üzrə kadr hazırlığına icazə verilmişdir.

Ali Diplomatiya Kolleci Azərbaycan Respublikası Prezidentinin 24.09.1994-cü il tarixli 212 saylı fərmanı ilə yaradılmış DAEK-in rəyi əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.02.1996-cı il tarixli 22 saylı qərarı ilə bakalavr pilləsində “Sinxron tərcümə”, “Diplomatiya” və “Beynəlxalq əlaqələr” ixtisasları üzrə kadr hazırlığı aparan qeyri-dövlət ali təhsil müəssisəsi kimi dövlət qeydiyyatına alınmışdır.

Təhsil müəssisəsi 30.06.2005-ci il tarixədək Ali Diplomatiya Kolleci adı ilə fəaliyyət göstərmiş, həmin tarixdən Azərbaycan Respublikası Təhsil Nazirliyinin xüsusi rəyi əsasında Azərbaycan hökumətinin qərarı ilə adı dəyişdirilərək Bakı Diplomatiya Universiteti adı ilə qeydiyyata alınmışdır. Azərbaycan hökumətinin 26.05.2006-cı il tarixli qərarı ilə təhsil müəssisəsi Bakı Avrasiya Universiteti adlandırılmış və Nizamnaməsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.

Maddi-texniki bazası, kadr potensialı və təhsil proqramlarının reallaşması üçün bütün digər imkanların mövcudluğu nəzərə alınaraq Təhsil Nazirliyinin təqdimatı əsasında Azərbaycan hökumətinin qərarı ilə 1996/1997-ci tədris ilindən təhsil müəssisəsində bakalavriat səviyyəsində “Hüquqşünaslıq”, 1997/1998-ci tədris ilindən “Regionşünaslıq (regionlar üzrə)”, 1999/2000-ci tədris ilindən “Gömrük işinin təşkili”, “Beynəlxalq iqtisadi münasibətlər” və “Ekologiya” ixtisasları üzrə kadr hazırlığı aparılmasına icazə verilmiş, “Sinxron tərcümə (dillər)” ixtisası üzrə hazırlıq aparılan dillərin sırası genişləndirilərək, ingilis, alman və fransız dilləri ilə yanaşı, ispan, ərəb və türk dili tərcüməçiliyi üzrə kadr hazırlığına başlanmışdır. “Ekologiya” ixtisası üzrə qəbul planı dolmadığına görə təhsil müəssisəinin qərarı ilə həmin ixtisas üzrə kadr hazırlığı dayandırılmışdır. “Regionşünaslıq (regionlar üzrə)” ixtisası üzrə kadr hazırlığı hazırda davam edir, “Hüquqşünaslıq” və “Diplomatiya” ixtisasları üzrə 1999/2000-ci tədris ilindən, “Gömrük işinin təşkili” və “Beynəlxalq iqtisadi münasibətlər” ixtisasları üzrə 2000/2001-ci tədris ilindən, “Sinxron tərcümə (dillər)” ixtisası üzrə 2009/2010-cu tədris ilindən kadr hazırlığı dayandırılmışdır. 2000/2001-ci tədris ilindən “Jurnalistika”, 2001/2002-ci tədris ilindən “Xarici dil”, 2003/2004-cü tədris ilindən “Beynəlxalq hüquq”, “Beynəlxalq iqtisadi münasibətlər” və “Tərcümə (dillər üzrə)”, 2006/2007-ci tədris ilindən “Azərbaycan dili və ədəbiyyatı”, “Beynəlxalq jurnalistika”, “Filologiya (dil qrupları üzrə)”, 2009/2010-cu tədris ilindən “Dil və ədəbiyyat müəllimliyi (dillər üzrə)” və “Xarici dil müəllimliyi (dillər üzrə)”, 2011/2012-ci tədris ilindən “Riyaziyyat və informatika müəllimliyi” və “İqtisadiyyat”, 2014/2015-ci tədris ilindən “Riyaziyyat” ixtisasları üzrə kadr hazırlığına başlanılmışdır. Özəl ali təhsil müəssisələrində pedaqoji ixtisaslar üzrə qəbulun dayandırılması ilə əlaqədar “Azərbaycan dili və ədəbiyyatı”, 2014/2015-ci tədris ilindən başlayaraq növbəti tədris illərində “Riyaziyyat və informatika müəllimliyi”, “Dil və ədəbiyyat müəllimliyi (dillər üzrə)” və “Xarici dil müəllimliyi (dillər üzrə)” həmin ildən etibarən ixtisası üzrə qəbul aparılmamışdır.

2017/2018-ci tədris ilindən bakalavriat səviyyəsində yalnız Filologiya (dil və ədəbiyyat göstərilməklə), Tərcümə (dillər üzrə), Regionşünaslıq (regionlar üzrə) ixtisasları üzrə qeyd edilən proqramlar və İqtisadiyyat ixtisası üzrə kadr hazırlığı aparılır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27.01.1999-cu il tarixli 24573 №-li razılıq məktubu əsasında Azərbaycan Respublikası Təhsil Nazirının 14.05.1999-cu il tarixli 11/346 №-li əmri ilə Universitetdə magistratura yaradılmış və HSM 130000 - “Hüquqşünaslıq” ali peşə istiqamətinin HSM130002 - “Beynəlxalq hüquq”, HSM 160000 – “Beynəlxalq münasibətlər” ali peşə istiqamətinin HSM 160001 - "Beynəlxalq münasibətlər (iqtisadiyyat üzrə)” və HSM160003 - “Diplomatiya”, HSM 040000 - “Dilşünaslıq” ali peşə istiqamətinin HSM 040013 - “Sinxron tərcümə (ingilis, fransız, alman, ərəb dilləri)” və HSM 040014 – “Tərcümə (ingilis dili)”, HSM 050000 - “Jurnalistika” ali peşə istiqamətinin HSM 050002 – “Beynəlxalq jurnalistika” ixtisasları üzrə magistr hazırığına başlanmışdır.

2005/2006-cı tədris ilindən başlayaraq magistratura səviyyəsində kadr hazırlığının strukturu genişləndirilmiş, müxtəlif tədris illərində “Regionşünaslıq”, “Dünya iqtisadiyyatı”, “İqtisadiyyat”, “Azərbaycan dili və ədəbiyyatı müəllimliyi”, “Xarici dil müəllimliyi (dillər üzrə)”, “Dil və ədəbiyyat müəllimliyi (dillər üzrə)”, “Filologiya”, “Riyaziyyat” ixtisasları üzrə kadr hazırlığına icazə verilmişdir. 2018-ci ilin əvvəlinə yalnız Filologiya, Regiomşünaslıq, İqtisadiyyat, Riyaziyyat ixtisaslarının qeyd edilən ixtisaslaşmaları üzrə kadr hazırlığı aparılır, digərləri isə artıq kadr hazırlığı strukturundan çıxarılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19.07.2013–cü il tarixli 188 saylı qərarı ilə Bakı Avrasiya Universitetində fəlsəfə doktoru proqramı üzrə doktorantura yaradılmış və həmin ildən “Filologiya” elm sahəsinin 5704.01 - “Dil nəzəriyyəsi”, 5706.01 - “Azərbaycan dili”, 5708.01 - “German dilləri”, 5716.01 - “Azərbaycan ədəbiyyatı”, 5719.01 - “Folklorşünaslıq”, 2016-cı ildən “Siyasi elmlər” elm sahəsinin 5901.01 - “Beynəlxalq münasibətlər” və 5904.01 - “Siyasi institutlar və sistemlər”, 53 - İqtisad elmləri elm sahəsinin 5308.01 - Ümumi iqtisadiyyat elmi ixtisasları üzrə yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadr hazırlığına başlanmışdır.

Universitet 2 dəfə (2010/2011 və 2016/2017-ci tədris illərində) akkreditasiyadan keçmiş, 31.05.2017-ci il tarixdə fəaliyyətinə müddətsiz xüsusi lisenziya verilmişdir.

2018-ci ilin əvvəlinə ali təhsilin bakalavriat səviyyəsində 12 ixtisas, magistratura səviyyəsində 3 ixtisas və 11 ixtisaslaşma üzrə mütəxəssis hazırlığı aparılır.

2017/2018-ci tədris ilinin əvvəlinə Univesitetin elmi və elmi-pedaqoji kadrlarının sayı 134 nəfər təşkil edir. Onlardan 52 nəfər (39%) ştatda, 8 nəfər (6%) daxili əvəzçilik üzrə, 14 nəfər daxili saathesabı (10%), ümumilikdə 74 nəfəri (55%) Universitetin öz heyəti, 60 nəfər (45%) isə başqa ali təhsil müəssisələri və elmi təşkilatlardan əvəzçilik və saathesabı qaydada (o cümlədən 60 nəfərdən 17 nəfəri, yəni 28%-i əvəzçiliklə, 43 nəfəri, 72%-i saathesabı) cəlb olunan professor-müəllim heyətindən ibarətdir.

Universitetin professor – müəllimlərinin 69 nəfərini elmi dərəcəsi olanlar təşkil etmişdir (ümumi sayın 51%-i ), o cümlədən, ştatda olan elmi dərəcəli heyətin sayı 21 nəfərdir (16%-i).

Bakı Avrasiya Universitetinin beynəlmiləlləşməsini təmin etmək məqsədilə son beş ildə dünyanın bir sıra ölkələrinin üniversitetləri, təhsil, elm və mədəniyyət sahəsində fəaliyyət göstərən təşkilatları ilə əlaqələr qurulmuş, ikitərəfli və çoxtərəfli əməkdaşlığa dair müqavilələr imzalamışdır. Universitet hazırda 60 xarici ölkə ali təhsil müəssisəsi və təşkilatlarla müəllim və tələbə mübadiləsi, birgə konfransların, simpoziumların təşkili və ortaq akademik proqramların həyata keçirilməsi istiqamətində əməkdaşlığını davam etdirir.

Universitet hazırda dörd beynəlxalq üniversitetlər birlyinin üzvüdür.

2018-ci ilin əvvəlinədək Universitetin maddi-texniki baza infrastrukturunun inkişafı istiqamətində səmərəli işlər görülmüşdür. Universitet hazırda tədris prosesini təmin edən bina və sahələrə malikdir. Universitet binası 2 tədris korpusundan ibarət olmaqla ümumi sahəsi 6011.5 kv. m., faydalı sahəsi 5363.9 kv. m.-dir. I tədris korpusu 2003-cü ildən istfadə olunmaqla ümumi sahəsi 4991,5 kv.m., faydalı sahəsi 3718.9 kv.m., II tədris korpusu 2013-cü ildən istfadə olunmaqla ümumi sahəsi 1920.0 kv.m., faydalı sahəsi 1645.0 kv.m. təşkil edir. Universitet binasında tədris (auditoriyalar, fənn kabinetləri və tədris laboratoriyaları, informasiya və kommunikasiya texnologiyaları mərkəzi) və fəaliyyətin təşkili üçün digər təyinatlı (inzibati xidmət otaqları, ictimai iaşə xidməti, kitabxana, konfrans zalı və akt zalları və s. ) otaqlar ayrılmışdır.

İxtisaslaşdırılmış fənn kabinetləri və tədris laboratoriyaları (“ABŞ və Kanada regionunun etnoqrafiya mərkəzi”, “Azərbaycan dili və ədəbiyyatı kabineti”, “Mülki müdafiə kabineti”, İngilis, alman, fransız və ərəb dilləri üzrə “İxtisas dili fənn kabineti, “Türkoloji araşdırmalar mərkəzi”, “Kompüter mərkəzi”) müasir informasiya-kommunikasiya texnologiyaları, limitsiz internet, əyani tədris vasitələri ilə təmin edilmişdir.

Universitet kitabxanasının ümumi sahəsi genişlənmiş, oxu zalları, ədəbiyyatın verilməsi və qəbulu sahəsi, kataloqlarla iş yeri, açıq istifadə fondları, qapalı saxlanılma fondlarının funksionallığı artırılmışdır. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası və Yaxın Doğu Universiteti ilə bağlanmış müqavilələrə əsasında həmin kitabxanaların elektron fondundan BAAU-nun əməkdaşları və tələbələri üçün sərbəst şəkildə istifadə imkanı yaradılmışdır.

Universitetdə bütün kompüterlərin internetə çıxış ilə təmin edilmişdir. Bütün struktur bölmələr kompüterlər, zəruri cihaz və avadanlıqlarla təmin edilmişdir.

Universitetin baau.edu.az ünvanlı web saytı fəaliyyət göstərir.

### 1.2. Güclü, Zəif, İmkanlar və Təhdidlərin (GZİT / SWOT) təhlili

Universitetin mövcud vəziyyətinin GZİT (SWOT) təhlili əsasında aşağıdakı zəif və güclü tərəfləri, həmçinin inkişaf imkanları və təhdidlər müəyyənləşdirilir:

| ***Güclü tərəflər*** | ***Zəif tərəflər*** |
|---|---|
| ➢ *akademik nüfuz və müsbət imic;*<br>➢ *təhsilin məzmununun mütəmadi olaraq yenilənməsi, keyfiyyətli təhsil;*<br>➢ *Boloniya prosesinin əsas parametrlərinə uyğun fəaliyyət göstərməsi;*<br>➢ *Akademik azadlıq, təşəbbüslərin dəstəklənməsini və nəticələrə görə cavabdehliyi təmin edən təhsil mühiti;*<br>➢ *formalaşmış akademik ənənələr;*<br>➢ *dayanıqlı və çevik idarəetmə sistemi, yeniliklərə açıq idarəetmə heyəti;*<br>➢ *tədris resurslarının idarəetmə və monitorinq sisteminin inkişafı;*<br>➢ *təhsil proqramlarının abituriyentlər üçün cəlbediciliyi;*<br>➢ *təhsil xidmətlərinə görə təhsil haqqı məbləğinin sosial statusundan asılı olmayaraq hər kəs üçün uyğunluğu;*<br>➢ *əlverişli yerləşmə və öz mülkiyyətində olan maddi-texniki baza təminatı;*<br>➢ *tədris, kadr və təcrübə mübadiləsi sahəsində beynəlxalq əməkdaşlıq əlaqələrinin genişliyi və səmərəliliyi.* | ➢ *təhsil, elm və istehsalın inteqrasiyasının lazımi səviyyədə olmaması, Universitet elminin kommersiyalaşdırılmaması;*<br>➢ *professor-müəllim heyətinin beynəlxalq proqramlarda və qrant layihələrində iştirak səviyyəsinin aşağı olması;*<br>➢ *işəgötürənlərin təhsil proqramlarının layihələndirilməsində və həyata keçirilməsində iştirak səviyyəsinin aşağı olması;*<br>➢ *xarici təhsil müəssisələri ilə ikili diplom proqramlarının olmaması;*<br>➢ *ştatda olan professor-müəllim heyətinin sayının az olması, elmi dərəcə və elmi adı olan ştatlı professor-müəllimlərin xüsusi çəkisinin qənaətbəxş olmaması;*<br>➢ *professor-müəllimlərin xarici dil biliklərinin aşağı səviyyədə olması;*<br>➢ *professor-müəllimlərin əməyinin keyfiyyətinin qiymətləndirilməsi və qazanılmış yüksək nəticələrə görə maddi həvəsləndirmə sisteminin tam qərarlaşmaması;*<br>➢ *professor-müəllimlər üzrə nəşr göstəricilərinin, xüsusən beynəlxalq xülasələndirmə indekslərinə çıxışın qənaətbəxş olmaması;* |

| | |
|---|---|
| | ➢ *tələbələrin elmi-tədqiqat işlərinə cəlb edilməsinin səmərəli mexanizminin olmaması;*<br>➢ *informasiya resursları və tədris-metodik ədəbiyyatla təminat səviyyəsinin qənaətbəxş olmaması;*<br>➢ *texniki və texnoloji ixtisaslar üzrə kadr hazırlığının aparılmaması;*<br>➢ *ingilis dilli qrupların olmaması (əcnəbi tələbələr üçün ingilis dilli qruplar istisna edilməklə);*<br>➢ *ali təhsil müəssisələrinin dünya reytinq sistemində yer almaması;*<br>➢ *daxili keyfiyyət təminatı mexanizmlərinin olmaması;*<br>➢ *təhsilalanların təhsil müddətində iş dünyasının tələbləri ilə tanışlığını, öz inkişaf xəttinin və karyera planlamasını qurması üçün peşəkar məsləhət xidmətlərinin olmaması;*<br>➢ *Universitet büdcəsinin yalnız təhsil haqqı hesabına maliyyələşdirilməsi;*<br>➢ *Universitetin fəaliyyətinin təbliği, tanınması işinin zəifliyi, PR menecmentin qurulmaması;*<br>➢ *məzunlarla əlaqənin zəifliyi, onların fəaliyyətinin izlənilməsi üçün vahid sistemin yaradılmaması.* |
| ***İmkanlar***<br>➢ *ölkənin sənaye inkişafının doğurduğu müasir çağırışlar;*<br>➢ *ali təhsil müəssisələrinin təhsil, elm və sosial-mədəni fəaliyyətinə yönəlik dövlət təminatları və prioritetlərinin mövcudluğu;*<br>➢ *ölkə ehtiyaclarına istiqamətlənmiş təhsil və elmi-tədqiqat nəticələrinə tələbat;*<br>➢ *ali təhsilə tələbat;*<br>➢ *korporativ idarəetmə prinsiplərinin reallaşdırlması üçün qanunvericilik bazasının mövcudluğu;*<br>➢ *təhsilalanların və təhsilverənlərin akademik mobilliyinin inkişafı üçün şəraitin mövcudluğu;*<br>➢ *elm, təhsil və istehsalatın inteqrasiyasının yeni mərhələyə keçidi üçün qanunvericilik* | ***Təhdidlər***<br>➢ *valyuta-maliyyə böhranı riski;*<br>➢ *demoqrafik situasiyanın tələbə qəbulunun kəmiyyət və keyfiyyət göstəricilərinə mənfi təsiri;*<br>➢ *tələbə qəbulu üzrə ödənişli plan yerlərinin müəyyənləşdirilməsində müstəqilliyin olmaması;*<br>➢ *tələbə qəbulunun aparılmasında müstəqilliyin olmaması;*<br>➢ *doktorantura və dissertanturada yekun attestasiyanın keçirilməsində müstəqilliyin olmaması;*<br>➢ *pedaqoji kadrların yaşlanması, ixtisaslı müəllim çatışmazlığı ehtimalı və onların axını;*<br>➢ *ictimai fikirdə özəl ali təhsil müəssisələrinə* |

| | |
|---|---|
| *bazasının mövcudluğu;*<br>➢ *maliyyə, informasiya, fiziki və əmək resurslarından istifadənin səmərəliliyinin yüksədilməsi üçün müasir menecment metodlarının mövcudluğu;*<br>➢ *tələbə və magistrantlar üçün ixtisas təcrübəsinin təşkili və məzunların işlə təmin edilməsi istiqamətində işəgötürənlərlə sosial partnyorluğun inkişafı;*<br>➢ *ümumdünya təhsil məkanında ali təhsil müəssisələrinin və elmi təşkilatların əməkdaşlığının inkişaf etməsinə imkan verən inteqrasiya proseslərinin genişlənməsi.* | *kifayət qədər etimadın olmaması.* |

### 1.3.Risklərin idarə edilməsi

| **Risk faktorlarının mənşəyi** | **Risk faktorlarının adı** | **Riskin idarə edilməsi üçün tədbirlər** |
|---|---|---|
| Xarici faktorlar | a) valyuta-maliyyyə böhranı riski | *maddi resurslara qənaət* |
| | | *əlavə malyyələşmə mənbələrinin axtarışı və cəlb edilməsi* |
| | b) qeyri-münbit demoqrafik vəziyyət | *təhsil proqramlarına abituriyentlərin cəlb edilməsi üçün mütəmadi olaraq peşəyönümü işin aparılması* |
| | | *subbakalavr proqramları üzrə hazırlığa başlanılması* |
| Daxili faktorlar | a) pedaqoji kadrların yaşlanması və ixtisaslı müəllim çatışmazlığı | *Universitetin məzunlarının təhsilin növbəti səviyyələri üzrə təhsilə cəlb edilməsi üçün peşəyönümü işin gücləndirilməsi və motivasiya tədbirlərinin tətbiqi* |
| | | *doktorant və dissertantların təhsil müddətində Universitetin pedaqoji prosesinə cəlb edilməsi* |
| | | *Universitetin yüksək ixtisaslı professor-müəllim heyətinin əmək haqqı təminatı səviyyəsinin yüksəldilməsi və maddi rifah halının yaxşılaşdırılması üçün əlavə maliyyə mənbələrinin axtarışı və cəlb edilməsi* |
| | b) Universitetin yüksək ixtisaslı professor-müəllim heyətinin axını | *əməkdaşların fəaliyyətinin stimullaşdırılması yolu ilə əmək haqqının differensasiyasi* |
| | c) işəgötürənlərin təhsil proqramlarının layihələndirilməsi və həyata keçirilməsində iştirak səviyyəsinin qənaətbəxş olmaması | *işəgötürənlərin kadr hazırlığı prosesinə marağının artırılması və bu istiqamətdə Universitetlə tərəfdaşlığa cəlb edilməsi üçün sistemli işin aparılması* |

| | | |
|---|---|---|
| | d) məzunların məşğulluq çətinlikləri | *əmək bazarının mütəmadi olaraq öyrənilməsi və təhlili* |
| | | *əmək bazarının tələblərinə uyğun olaraq kadr hazırlığının aparılması* |
| | | *təhsilalanların karyera planlaması istiqamətində fəaliyyətinə dəstək* |
| | e) maddi-texniki bazanın fiziki və mənəvi cəhətdən köhnəlməsi | *maddi-texniki bazanın mərhələli şəkildə yenilənməsi* |
| | ə) müasir tələblərə cavab verən tədris ədəbiyyatının çatışmazlığı | *tədris-metodik ədəbiyyatın hazırlanması üçün dəstək* |
| | | *Universitet kitabxanasına daxil olan ədəbiyyatın keyfiyyətinin mütəmadi olaraq təhlili* |

## 2. MİSSİYA, VİZYON VƏ DƏYƏRLƏR

### MİSSİYA

Missiyamız milli və ümumbəşəri dəyərlərə söykənərək müasir dövrün çağırışlarına və əmək bazarının tələblərinə cavab verən biliklərə, bacarıq və səriştələrə malik, müstəqil və yaradıcı düşünən, müasir təfəkkürlü mütəxəssis, rəqabətqabliyyətli insan kapitalı formalaşdırmaqdır.

### STRATEJİ BAXIŞ (VİZYON)

Strateji baxışımız kadr hazırlığının keyfiyyətini əmək bazarının və beynəlxalq standartların tələblərinə uyğun artırmaqla ali təhsil məkanında Universitetin rəqabətqabiliyyətliliyini təmin etməkdir.

### DƏYƏRLƏR

**Millilik və dünyəvilik.** Milli və ümumbəşəri dəyərlərə sadiqlik və onların qorunması fəaliyyətimizin əsasını təşkil edir.

**Humanistlik.** Milli və ümumbəşəri dəyərlər, şəxsiyyətin azad inkişafı, insan hüquqları və azadlıqları, ətraf mühitə və insanlara qayğı və hörmət prioritetimizdir.

**Multukulturalizm və tolerantlıq.** Mədəni müxtəlifliklərin qorunmasına, digər inanc və əqidələrə dözümlü yanaşmaya daim sadiqik.

**Şəxsiyyətyönümlülük.** Universitetin başlıca dəyəri onun təhsilalanları və əməkdaşlarıdır. Şəxsiyyətə, onun maraqlarına hörmət, hər kəsin yaradıcı və elmi potensialının inkişafı bizim prioritetimizdir.

**Səriştə və bacarıqyönümlülük.** Əmək bazarının tələblərinə uyğun müasir səriştə və bacarıqları formalaşdırmaq təhsil proqramlarının əsas məqsədidir.

**Keyfiyyətlilik.** Ölkədə qəbul olunan dövlət təhsil standartlarına və normalarına cavab verən, beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşmış, cəmiyyətin və dövlətin maraqlarına uyğun yüksək keyfiyyətli kadr hazırlığını təmin etmək prioritetimizdir.

**Məsuliyyət.** Cəmiyyətin və dövlətin Universitet qarşısında qoyduğu vəzifələrin yerinə yetirilməsinin səmərəliliyinə, təhsil xidmətləri istehlakçılarının ehtiyaclarının keyfiyyətli təminatına məsuliyyət daşıyırıq.

**Demokratiklik.** Təhsilalanların azad düşüncə ruhunda tərbiyə edilməsinə, təhsilverənlərin akademik azadlığına önəm veririk.

**İnteqrasiya.** Təhsilin dünya təhsil sisteminə uyğunlaşması və qovuşması əsasında inkişafına önəm veririk.

## 3. STRATEJİ İSTİQAMƏTLƏR, MƏQSƏDLƏR VƏ HƏDƏF GÖSTƏRİCİLƏRİ

Milli təhsil sisteminin inkişaf məqsədlərini, ölkənin sənaye inkişafını, Universitetin rəqabətqabiliyyətlilik səviyyəsini və GZİT (SWOT) təhlili əsasında aşkar edilmiş zəif tərəflər və inkişaf imkanları nəzərə alaraq aşağıdakı prioritet fəaliyyət istiqamətləri müəyyən edilir.

### 3.1. Rəqabətqabiliyyətli kadr hazırlığının təmin edilməsi

**Məqsəd 3.1.1: Təhsilin məzmununun yeni çağırışlar və tendensiyalar kontekstində müasirləşdirilməsi, daxili və xarici əmək bazarının tələbatına cavab verən kadrların hazırlanması**

***Hədəflər:***

- ✓ təhsil proqramlarının Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlara və əmək bazarının tələblərinə uyğunlaşdırılması;
- ✓ tələbəyönümlü yanaşma, tələbələrin təlim prosesində fəal rolunu təmin edən tədris və öyrənmə metodlarını tətbiq etməklə tələbəmərkəzli təhsil mühitini formalaşdırmaq;
- ✓ tədris proqramlarının məzmununun monitorinqinin müntəzəm olaraq aparılması və cəmiyyətin dəyişən ehtiyaclarına uyğun olaraq yenilənməsi;
- ✓ tədris prosesinin tələbələrin təlim nəticələrini qazanmasını təmin edən şərtlər əsasında yenidən qurulması, təlim texnologiyalarının və tədris metodlarının müasirləşdirlməsi;
- ✓ tələbələrin tədris prosesində fəallığının artırılmasına, bilik keyfiyyətinin, bacarıq və səriştələrinin daha adekvat qiymətləndirilməsinə, həmçinin onların təlim nəticələrinə etimad və fəaliyyətinin stimullaşdırılmasına imkan verən səmərəli qiymətləndirmə mexanizmlərinin tətbiqi;
- ✓ tələbələrin proqramdan gözlədikləri nəticələr, onların ehtiyacları və məmnunluq səviyyəsinin monitorinqini müntəzəm olaraq aparmaqla proqram müasirliyinin təmin edilməsi;
- ✓ təcrübə yönümlü təlimin müasir formalarının tətbiqi;
- ✓ kadr hazırlığı strukturunun əmək bazarının tələblərinə uyğun olaraq təkmilləşdirilməsi, yeni ixtisas qrupları və ixtisaslar (ixtisaslaşmalar) üzrə kadr hazırlığına başlanılması:

**<u>bakalavriat səviyyəsində</u>**

- ➢ Təhsil ixtisasları qrupu: Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, Dil və ədəbiyyat müəllimliyi (dillər üzrə), Riyaziyyat və informatika müəllimliyi, Xarici dil müəllimliyi (dillər üzrə);
- ➢ Mədəniyyət və incəsənət ixtisasları qrupu: Dizayn (sahələr üzrə);
- ➢ Texniki və texnoloji ixtisaslar qrupu üzrə: İnformasiya texnologiyaları;
- ➢ Təbiət ixtisasları qrupu üzrə: Kompüter elmləri, Ekologiya;
- ➢ İqtisadiyyat və idarəetmə ixtisasları qrupu üzrə: Maliyyə, Marketinq, Menecment, Mühasibat.

**<u>magistratura səviyyəsində</u>**

- ➢ Biznesin təşkili və idarəedilməsi-MBA proqramı: maliyyə; mühasibat uçotu; audit
- ✓ texniki və texnoloji ixtisaslar üzrə kadr hazırlığına tərəfdaş universitetlərdən professor-müəllimlərin cəlb edilməsi, onların distant texnologiyalar və şəbəkə təhsili üzərindən fənləri onlayn tədris etməsinə şərait yaratmaq;
- ✓ texniki və texnoloji, diplomatik fəaliyyətə yönəlik ixtisaslar üzrə ingilis bölmələrinin (əcnəbi tələbələr üçün ingilsdilli qruplar istisna edilməklə) yaradılması;
- ✓ xarici dil (ixtisas dili) hazırlığına verilən məzmun tələblərinin köklü surətdə dəyişdirilməsi, ixtisas xüsusiyyətlərinin nəzərə alınması;
- ✓ tədris fəaliyyətinə innovativ yanaşmanın tətbiqi, fənlər üzrə hədəf qruplarının (xarici dil fənlərinin tədrisində dil bilmə səviyyələrinə görə yüksək, orta və zəif səviyyəni nəzərə almaqla)

formalaşdırılması, məzmun və təlim metodlarını qrup səviyyəsinə uyğun olaraq differensiallaşdırmaq;

- ✓ sosial tərəfdaşların və işəgötürənlərin təhsil proqramlarının işlənib hazırlanması və həyata keçirilməsinə cəlb edilməsi;
- ✓ peşəyönümü formatının təkmilləşdirilməsi, Universitetin təhsil proqramlarının, xüsusən qəbul prosesində yüksək bal toplayanlar üçün cəlbediciliyinin artırılması məqsədilə hazırki stimullaşdırıcı tədbirlərin (yüksək bal toplayanlara təhsil haqqından güzəştlər, təqaüd və s.) artırılması;
- ✓ məzunların kvalifikasiya qiymətləndirilməsinə peşəkar qurumların cəlb edilməsi;
- ✓ informasiya infrastrukturunun inkişaf etdirilməsi və distant təhsil texnologiyalarının tətbiqi;
- ✓ xüsusi təhsilə ehtiyacı olan tələbələrin informasiya-kitabxana resursları ilə təmin edilməsi, inklüziv təhsilin problemləri üzrə professor-müəllim heyətinin və işçilərin təlimləndirilməsi, o cümlədən xaricdə ixtisasartırma.

### Məqsəd 3.1.2: Təhsilverənlərin peşəkarlıq səviyyəsinin artırılması

***Hədəflər:***

- ✓ pedaqoji kadrların müsabiqə yolu ilə seçilməsi üçün tələblər sisteminin yenilənməsi, tədris prosesinə istehsalatdan mütəxəssislərin cəlb edilməsi işinin genişləndirilməsi;
- ✓ aparıcı dünya universitetlərində təhsil almış məzunların işə qəbulu;
- ✓ əcnəbi mütəxəssislərin cəlb edilməsi;
- ✓ xarici dil müəllimlərinin beynəlxalq tələblərə uyğun olaraq sertifikasiyası, qeyri-dil fənlərini xarici dildə tədris etmək üçün ixtisaslı kadr bazasının formalaşdırılması;
- ✓ professor-müəllim heyəti üçün ixtisasartırma kurslarının təşkili;
- ✓ professor-müəllim heyəti üçün İKT savadlılığına yönəlik tədbirlərin təşkili;
- ✓ professor-müəllim heyətinin fəaliyyətinin stimullaşdırılması üçün RQS (reytinq qiymətlndirmə sisteminin) yaradılması, reytinq əsaslı differensial əmək haqqı siyasətinin işlənib hazırlanması və tətbiqi.

### Məqsəd 3.1.3: Təhsilalanların vətəndaşlıq və vətənpərvərlik ruhunda tərbiyəsi, sosial dəstək tədbirlərinin həyata keçirilməsi

***Hədəflər:***

- ✓ tələbə gənclərin vətəndaşliq və vətənpərvərlik tərbiyəsinin təkmilləşdirilməsi, vətənpərvərliyin formalaşmasına və mənəvi-əxlaqi dəyərlərin möhkəmləndirilməsinə yönəlmiş tədbirlərin təşkili;
- ✓ yüksək vətəndaş məsuliyyətinə, vətənpərvərlik və tolerantlıq hissinə malik, sosial adaptasiya olunmuş şəxsiyyətin formalaşdırılması və inkişafı;
- ✓ sosial əhəmiyyətli respublika və universitet birliklərinin fəaliyyətinin təşviqi, mədəniyyət və idman birliklərinin fəaliyyəti üçün şərait yaradılması;
- ✓ tələbələrin ictimai-siyasi gənclər təşkilatlarına, yaradıcılıq birliklərinə, maraq klublarına, elmi dərnəklərə cəlb edilməsi;
- ✓ tələbələrə sosial dəstəyin təkmilləşdirilməsi, sosial müdafiəyə ehtiyacı olan tələbələrə maddi yardım göstərməklə dəstəklənməsi;
- ✓ tələbələrin təhsil, yaşayış və istirahət təhlükəsizliyinin təmin edilməsi.

### 3.2. İstiqamət: Elmi-tədqiqat fəaliyyətinin təkmilləşdirilməsi

### 3.2.1. Məqsəd: Universitetin elmi-tədqiqat fəaliyyətinin səmərəliliyinin artırılması

***Hədəflər:***

- ✓ elmi kadrların əməyinin stimullaşdırılmasında fərdi yanaşma metodundan istifadə;
- ✓ professor-müəllim heyətinin nəşr fəallığının artırılması, "Web of Science" və "Scopus" bazasına daxil edilmiş nəşrlərdə məqalələrin çap edilməsi;
- ✓ tədqiqat performansına nəzarət və qiymətləndirmənin inkişaf etdirilməsi, o cümlədən: 4 ilin sonuna qədər nəşr dərəcələri, sitatların sayı və layihə mərhələləri daxil olmaqla əsas göstəriciləri izləmək və qiymətləndirmək üçün universitet miqyasında tədqiqat fəaliyyətinin monitorinqi sisteminin hazırlanması və həyata keçirilməsi;
- ✓ tədqiqat məhsuldarlığını hər il artırmaq və tədqiqat proseslərindəki səmərəliliyi müəyyən etmək üçün performans məlumatlarından istifadə edilməsi;
- ✓ professor-müəllim heyəti və tədqiqatçılar arasında tədqiqat dürüstlük siyasətləri ilə bağlı məlumatlılığın və uyğunluğun artırılması, elmi-tədqiqat fəaliyyətində antiplagiat və akademik dürüstlük siyasətinin tətbiqi.

### 3.2.2. Məqsəd: Tədqiqat infrastrukturunun gücləndirilməsi

***Hədəflər:***

- ✓ Universitetin elmi idarəetmə sisteminin və elmi infrastrukturunun müasirləşdirilməsi;
- ✓ təhsilalanların yaradıcı təşəbbüslərinin dəstəklənməsi, start-up fəaliyyətlərinin təşviqi;
- ✓ araşdırma mərkəzləri və eləcə də digər elmi resursların yaradılması və müasirləşdirilməsi;
- ✓ beynəlxalq tərəfdaşlarla birlikdə texnoparkın, biznes inkubatorun yaradılması.

### 3.2.3. Məqsəd: Əməkdaşlıq və şəbəkələşmə

***Hədəflər:***

- ✓ birgə tədqiqat layihələrini, nəşrlərin həmmüəllifliyini və paylaşılan resursları təşviq edən əməkdaşlıq müqavilələrinin hazırlanması;
- ✓ müxtəlif təcrübələri birləşdirmək üçün sahələrarası tədqiqat əməkdaşlığının təşviq edilməsi;
- ✓ şəbəkə və bilik mübadiləsini təşviq etmək üçün konfransların, seminarların təşkil edilməsi;
- ✓ universitet - sənaye əməkdaşlığının qurulması;
- ✓ qrantların yazılması, layihənin idarə edilməsi, akademik nəşrlər və şəbəkələşmə bacarıqları üzrə təlim proqramlarını təşkil etməklə tədqiqatçıların peşəkar inkişafının təkmilləşdirilməsi.

### 3.2.4. Məqsəd: Elmin inkişafına yönəlik maliyyə və resursların idarə edilməsi

***Hədəflər:***

- ✓ Universitetin elmi-tədqiqat layihələri üçün dəqiq maliyyə planlarının hazırlanması, hər bir layihə üzrə resursların (maliyyə, insan potensialı, avadanlıq) düzgün bölüşdürülməsi;
- ✓ Universitetin elmi-tədqiqat layihələri üçün qrantlar, fondlar, sponsorluq və digər maliyyə mənbələri vasitəsilə əlavə maliyyə vəsaitlərinin əldə edilməsi;
- ✓ tətbiqi və fundamental tədqiqatların həyata keçirilməsi üçün yeni yerli və xarici tərəfdaşların cəlb edilməsi.

### 3.2.5. Məqsəd: Elmi kadr potensialının inkişafı

***Hədəflər:***

- ✓ gənc alimlərin elmi-tədqiqat işlərinə həvəsləndirilməsi və elmi kadr ehtiyatının formalaşdırılması;
- ✓ akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin, seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi;
- ✓ elmi tədqiqatlara qatılan alim və tədqiqatçıların sayının artırılması, həmçinin müvafiq sahələr üzrə ekspert və mütəxəssis potensialının gücləndirilməsi.

## 3.3 . Universitetin beynəlmiləlləşdirilməsi

### Məqsəd 3.3.1: Beynəlxalq səviyyəli strateji əməkdaşlıqların artırılması

***Hədəflər:***

- ✓ tədris, elmi tədqiqat, kadr və təcrübə mübadiləsi sahəsində səmərəli və məhsuldar əməkdaşlıq əlaqələrinə yeni tərəfdaşların cəlb edilməsi və qarşılıqlı etimad mühitinin formalaşdırılması;
- ✓ ölkənin ehtiyac duyulan ixtisas proqramları üzrə nüfuzlu xarici ali təhsil müəssisələri ilə birgə beynəlxalq ikili diplom proqramlarının təşkili;
- ✓ beynəlxalq təhsil təşkilatlarına üzvlük və əlaqələrin inkişaf etdirilməsi;
- ✓ beynəlxalq qrant layihələrində iştirakın dəstəklənməsi və təşviq olunması.

### Məqsəd 3.3.2: Mübadilə proqramlarının əhatə dairəsinin genişləndirilməsi

***Hədəflər:***

- ✓ Erasmus+ və Mövlanə mübadilə proqramları çərçivəsində yeni tərəfdaşlarla müqavilələrin imzalanması;
- ✓ əcnəbi professor-müəllim heyəti və tələbələrin cəlb olunması;
- ✓ Universitetin müəllim, inzibati heyət və tələbələrinin mübadilə proqramlarına təşviq edilməsi və iştirakçı sayının artırılması.

### Məqsəd 3.3.3: Əcnəbi tələbələrin cəlb olunması

***Hədəflər:***

- ✓ əcnəbi tələbələrin sayının artırılması;
- ✓ əcnəbi tələbələrin qəbulu üzrə coğrafi əhatənin genişləndirilməsi və risk qrupuna daxil olmayan ölkələrə üstünlüyün verilməsi;
- ✓ ali təhsilin bakalavriat və magistratura səviyyələrində təlim dili ingilis dilində olan proqramların sayının artırılması;
- ✓ tələbələri qlobal əmək bazarına hazırlamaq üçün beynəlxalq perspektivlərin, qlobal problemlərin və mədəniyyətlərarası səriştənin təhsil proqramlarına inteqrasiyasının və təhsil proqramlarının beynəlxalq akreditasiyasının təmin olunması;
- ✓ professor-müəllim heyətinin ingilis dilində tədris etmək bacarıqlarının inkişaf etdirilməsi;
- ✓ xaricdə təhsil şirkətləri ilə əməkdaşlığın artırılması;
- ✓ istedadlı əcnəbi tələbələri cəlb etmək məqsədilə onların təhsili və ölkədə yaşamaları üçün əlverişli şəraitin yaradılması;

- ✓ dəstək xidmətləri və təqaüd təqdim edilməsi, beynəlxalq təhsil sərgilərində iştirak edilməsi;
- ✓ Universitetdə multikultural mühitin formlaşadırılması.

**Məqsəd 3.3.4: Tədqiqat sahəsində beynəlxalq əməkdaşlığın inkişafı**

***Hədəflər:***

- ✓ aktual problemlərin həlli və müxtəlif sahələrdə biliklərin artırılması üçün xarici ölkələrin elmi tədqiqat mərkəzləri ilə əməkdaşlığın genişləndirilməsi və effektivliliyinin artırılması;
- ✓ birgə layihələr vasitəsilə beynəlxalq elmi tədqiqat əməkdaşlığının təşviq edilməsi;
- ✓ beynəlxalq birgə tədqiqat layihələrində iştirakın dəstəklənməsi;
- ✓ beynəlxalq konfransların təşkili.

**Məqsəd 3.3.5: Universitetin beynəlxalq reytinqinin yüksəldilməsi**

***Hədəflər:***

- ✓ beynəlxalq əməkdaşlığın gücləndirilməsi;
- ✓ əcnəbi tələbə və professor-müəllim heyətinin sayının artırılması;
- ✓ THE, QS və digər nüfuzlu reytinqlərdə təmsil olunması və həmin təşkilatları tərəfindən təşkil edilən seminar, sərgi və digər tədbirlərdə fəal iştirak edilməsi.

### 3.4. İdarəetmə mexanizmlərinin müasirləşdirilməsi və idarəetmənin təkmilləşdirilməsi

**Məqsəd 3.4.1: İdarəetmənin təkmilləşdirilməsi**

***Hədəflər:***

- ✓ nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin tətbiqi;
- ✓ tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi, nəticəyönümlü və şəffaf idarəetmə modelinin qurulması;
- ✓ yeni təşkilati strukturun təmin edilməsi, struktur bölmələrin fəaliyyətini tənzimləyən əsasnamələrin yenilənməsi;
- ✓ Universitetin fəaliyyətinin bütün sahələri üçün yeni prosedurların və lokal tənzimləyici sənədlərin hazırlanması;
- ✓ Universitetin korporativ mədəniyyətinə yeni baxış, dəyərlər və prosedurlar sistemində dəyişikliklərin aparılması;
- ✓ Universitetin bütün fəaliyyət istiqamətləri üzrə idarəetmə sisteminin diaqnostikası və təkmilləşdirilməsi, hesabatlılığın artırılması.

**Məqsəd 3.4.2: İnsan resurslarının idarə edilməsinin müasirləşdirilməsi**

***Hədəflər:***

- ✓ insan resurslarının müasirləşdirilməsi;
- ✓ işçi səlahiyyətlərini və öhdəliklərini müəyyən edən yeni vəzifə təlimatlarının hazırlanması, heyətin idarə edilməsinin optimallaşdırılması;
- ✓ perfomans idarə edilməsi sisteminin tətbiqi;

- ✓ KPİ əsaslı differensiallaşdırılmış əmək haqqı siyasətinin hazırlanması və tətbiqi, mükafatlandırma siyasətinin yenilənməsi;
- ✓ səriştəli təhsilverənin formalaşdırılması və peşəkarlığının yüksəldilməsinə xidmət edən təlim sisteminin qurulması;
- ✓ heyətin təlimləndirilməsi üçün xərclərin müəyyən edilməsi;
- ✓ işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması;
- ✓ işçilərin rifahı naminə sosial və mədəni tədbirlərin keçirilməsi.

**Məqsəd 3.4.3. İdarəetmənin rəqəmsallaşdırılması**

**Hədəflər:**

- ✓ Elektron Universitetin qurulması, idarəetmənin tam avtomatlaşdırılması;
- ✓ xaricdə sertifikatlaşdırılmış yenidənhazırlanma və ixtisasartırma proqramlarında iştirak etməklə AİS peşəkar səviyyəsinin yüksəldilməsi;
- ✓ media vasitəsilə universitetin informasiya açıqlığının və bütün proseslərin şəffaflığının təmin edilməsi.

## 3.5. Maddi-texniki baza infrastrukturunun təkmilləşdirilməsi və müasirləşdirilməsi

### 3.5.1. Universitet infrastrukturunun inkişafi

**Hədəflər:**

- ✓ tədris korpusunun müasirləşdirilməsi;
- ✓ auditoriya və laboratoriyaların müasir avadanlıq və yüksəksürətli internetə qoşulmuş kompüter və digər texniki avadanlıqlar ilə təchizat səviyyəsinin yüksəldilməsi;
- ✓ müasir tələblər səviyyəsində tədris laboratoriyalarının, fənn kabinetlərinin, linqafon kabinetlərinin formalaşdırılması və avadanlıqlarla təmin edilməsi;
- ✓ kitabxana sahəsinin genişləndirilməsi və təminatın müasirləşdirilməsi;
- ✓ tələbə yataqxanasının sahəsinin genişləndirilməsi və təminatın müasirləşdirilməsi;
- ✓ büdcə xərclərində elmi-tədqiqat, işçi hazırlığı, maddi-texniki baza, həmçinin kitabxana xərclərinə yönəlik maliyyə vəsaitinin ayrılması.

## 3.6. Universitetin müsbət imicinin qorunması, mövqelərinin möhkəmləndirilməsi

**Hədəflər:**

- ✓ təhsil xidmətləri bazarında Universitetin rəqabət qabiliyyətini təmin edən kommunikasiya fəaliyyətinin strategiya və taktikasının formalaşdırılması;
- ✓ Universitetin fəaliyyəti haqqında məlumat bazasının (foto, video arxiv, xəbər arxivi) yenilənməsi və davamlı olaraq zənginləşdirilməsi;
- ✓ Universitetin reklam və sərgi fəaliyyəti, reklam kampaniyalarının aparılması;
- ✓ Universitetin korporativ mədəniyyətinin inkişafı və saxlanması üçün təhsilə, universitetin ənənələrinin inkişafına və qorunub saxlanmasına yönəlmiş tədbirlərin hazırlanması və keçirilməsi.

## 4. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ

4.1. Strateji İnkişaf Proqramının icrası üzrə məsul struktur bölmələr müəyyən ediləcəkdir.

4.2. Strateji İnkişaf Proqramının icrası üzrə struktur bölmələrin fəaliyyətinin koordinasiyası İcra aparatı tərəfindən həyata keçiriləcək.

4.3. Struktur bölmələr Strateji İnkişaf Proqramı üzrə məsul olduqları sahələrdə hər rüb ərzində görülmüş işlərə dair hesabatlarını rübün başa çatmasından 10 gün müddətinə İcra aparatına təqdim edəcək.

4.4. SİP-in icrası üzrə rüblük yekun hesabatların monitorinq və qiymətləndirilməsi İcra aparatı tərəfindən həyata keçiriləcək.

4.5. İcra aparatının SİP-in icrasına dair rüblük hesabatı Universitet Elmi Şurasında dinləniləcək.

4.6. Rüblük monitorinqin nəticələri və növbəti dövr üçün tövsiyələr əsas icraçı struktur bölməyə Universitet Elmi Şurasının qərarı ilə təqdim ediləcəkdir. Struktur bölmələr tərəfindən monitorinq nəticələrinin və tövsiyələrin fəaliyyətdə nəzərə alınması üçün tədbirlər hazırlanıb həyata keçiriləcəkdir.